Həqiqətən Allah təqvalı, zəngin qəlbli, gözlərdən gizli-nəzərə çarpmayan(şan-şöhrətdən uzaq) qulunu sevir

Sad bin Əbi Vaqqas (Allah ondan razı olsun) demişdir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: Həqiqətən Allah təqvalı, zəngin qəlbli, gözlərdən gizli-nəzərə çarpmayan(şan-şöhrətdən uzaq) qulunu sevir.
[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, izzət və cəlal sahibi olan Allah bəzi qullarını sevir, Bunlardan biri: təqvalı olan - Allahın əmrlərini yerinə yetirən, qadağalarından çəkinəndir. Allah həmçinin qəlbi zəngin olan bəndəni sevir: o kəs ki, insanlara deyil, məhz Allaha etimad edir, Ondan başqa heç kimə yönlənməz. Gözlərdən gizli olan qulunu sevər: o qul ki, təvazökardır, Rəbbinə ibadət edər, ona faydalı şeylərlə məşğul olar, kiminsə onu tanımasına və ya onu tərif və səna etməsinə önəm verməz.

http://www.sunnah.global/hadeeth/az/show/5545